

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi Bakı Dövlət Universiteti

28 mart 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU ilə "Alexandru İoan Cuza" Universiteti arasında əməkdaşlıq genişlənir səh. 4

"Elmi işlərin yazılma qaydaları" adlı elmi-praktiki seminar keçirilib səh. 4

Praktik dilin tərcümanı: professor Musa Adilov səh. 5

Cenevrə Universiteti ilə BDU arasında birgə əməkdaşlığın perspektivləri müzakirə edilib səh. 5

Metsenatlıq məktəbi səh. 6

BDU professorunun məqaləsi yüksək impakt faktorlu jurnalda dərc olunub səh. 8

Videomontaj təlimlərinə start verilib səh. 8

Vikipediya qrupu yaradılıb səh. 8

Çin vurusu: Koronavirus nədir və nə dərəcədə narahat olmalı? səh. 8



**31 Mart - Azərbaycanlıların soyqırımı** Səh.2



**Fransada "Tvininq" layihəsi çərçivəsində növbəti görüş** Səh.3



**BDU-da nüvə tədqiqatlarına dair əməkdaşlıq sazişi imzalanıb** Səh.4



**Bolonya universiteti dünyanın zəngin tarixi olan qədim universitetlərdən biridir** Səh.6



**BDU-nun taleyi bu dəfə də azərbaycanlıya etibar edilmədi** Səh.7



## Novruz Bayramı: tarixi və ənənələri

Hər bir xalq bu bayramla bağlı etnik, yerli, milli xüsusiyyətlərinə uyğun, özünəməxsus mövsüm adətləri, mərasim nəğmələri yaradıb. Ümumilikdə, Novruz Azərbaycan, İran, Türkmənistan, Tacikistan, Özbəkistan, Pakistan, Qazaxıstan, Qırğızıstan, Türkiyədə xüsusi təntənə ilə qeyd edilir. Albaniyada Novruz bayramı dini bayram kimi Bəktaşilik təriqətinin davamçıları tərəfindən qeyd edilir.

***Dünya yaranandan xalqlar özünəməxsus adət-ənənə yaratmış və bu ənənələri nəsildən-nəslə ötürmüşlər. Azərbaycan xalqı o xoşbəxt xalqlardandır ki, özünün adət-ənənəsini yaratmış və dövrün, zamanın dəyişməsinə baxmayaraq, onu yaşatmışdır. Sevinc üzərində qurulan, meydana gələn adət-ənənə sonradan tarixi hadisə olaraq xalqımızın milli bayramı kimi formalaşmışdı.***

Artıq bütün dünyada qeyd olunmaqda olan Novruz bayramı da Azərbaycan xalqının tarixi qədim olan bayramlarındandır. Tarixi mənbələrə əsasən, demək olar ki, hələ qədim zamanlarda bu bayram 12-15 gün qeyd olunub. Bayram günlərinin öz ritualları, adət-ənənələri mövcuddur. Əyləncələrlə, oyunlarla zəngin olan hər gün yaradıcılığın bütün janrlarını əhatə edir. Yazılı mənbələrə istinadən demək olar ki, Novruz bayramı eradan əvvəl 505-ci ildə yaranmışdır. Dünyəvi şair Nazimilmülkün "Siyasətnamə"sin də, Ömər Xəyyamın "Novruznamə"sin də və digər şair və yazıçılarımızın əsərlərində Novruz bayramı xalqımızın ən geniş şəkildə qeyd etdiyi bayramlardan biri kimi vurğulanmışdır. Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında Nüşabənin İsgəndəri məhz Novruz bayramında qonaq çağırması və tonqal ətrafında ona müxtəlif cür Novruz adət-ənənəsini özündə əks etdirən nemətləri təqdim etməsi bu bayrama xüsusi önəm verildiyini göstərir.

Yazılı ədəbiyyata əsaslanaraq, demək olar ki, Novruz bayramı Baharın gəlişi ilə əlaqələndirilir. Təbiət hadisəsi ilə qədim insan cəmiyyətlərinin həmin anı bayram olaraq qeyd etmələrinin məntiqi səbəbləri var. Təbiətə yenilik gətirən bu anı yeni il kimi qeyd etmək də təsadüfi deyil. "Yeni gün" anlamına gələn bu bayram İslam adət-ənənəsinə də tam uyğundur. Çünki islam ümumbəşəri din olduğu üçün həqiqətdə islami dəyərlər olan bəşəri dəyərləri hər zaman ön cərgədə təqdim edib. Bu önəmli və vurğulanmalı məsələdir ki, Allah-Təala insanı pis və yaxşıdan seçmək kimi daxili bir qüvvə ilə zənginləşdirmişdir.

**(Ardı səh. 2)**



**BDU-da dezinfeksiya işləri davam etdirilir** Səh.8



**Zarafatlaşdığımız 1 aprel** Səh.7



**BDU-da elektron dərslərin bu günü və perspektivləri** Səh.8

# 31 Mart - Azərbaycanlıların soyqırımı



**Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII əsrin əvvəllərindən başlayır. Həmin dövrdə torpaqlarını Cənubi Qafqaza doğru genişləndirməkdə olan çar Rusiyası ermənilərdən vasitə kimi istifadə edir, Qafqazda erməni milli dövləti yaradacağı vədi ilə onları şirnikləndirirdi.** 1724-cü il noyabrın 10-da I Pyotrun adından verilmiş fərmanda ələ keçirilmiş torpaqlarda - Bakıda və başqa yerlərdə ermənilərin məskunlaşdırılması üçün hər cür şərait yaradılması nəzərdə tutulmuşdur. Ermənilər bu fürsətdən istifadə edərək, öz məkrli siyasətlərini həyata keçirmək, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədi ilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər. Ermənilərin fasilələrlə, lakin düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuşdur.

Azərbaycanın ərazisində məskunlaşdırılan ermənilər sayca azlıq təşkil etsələr də, öz havadarlarının himayəsi altında inzibati bölgü yaradılmasına nail olmuşdular. Bununla da azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyulmuşdur. Uydurma "Böyük Ermənistan" ideyasına həqiqət donu geyindirmək məqsədi ilə erməni tarixi saxtalaşdırılır, Azərbaycanın tarixi isə təhrif olunurdu. Bu süni xülyalardan ruhlanan erməni təcavüzkarları XX əsrdə azərbaycanlılara qarşı daha amansız qanlı aksiyalar həyata keçirirdilər. Bakı şəhərində başlanılan erməni vəhşilikləri Azərbaycanın bütün ərazisinə yayılmışdır. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.

*"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib.*

1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başlamışdılar. 1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında maskalanaraq, daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdır.

Azərbaycanlıların soyqırımından bəhs ediləndə daha çox 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Salyanda, Lənkəranda və digər bölgələrdə erməni hərbi qüvvələrinin törətdikləri qırğınlardan danışılır.

1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunlarının və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib.

1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınına başlanılmışdır. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişdirlər. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner soyadlı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə yazmışdır: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirlər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87



azərbaycanlının cəsədinin qulaqları və burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinin araşdırılmasına xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası tərəfindən 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə Fövqəladə İstintaq Komissiyası yaradılmışdır.

*Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə əhalisi ilə birgə məhv edilmişdir. Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və qocalardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq, son nəfərinədək qətlə yetirilmişdir.* Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütövlükdə Zəngəzur qəzası üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı isə qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı qətlə yetirilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kəndi dağıtmış və əhalisini məhv etmişdir.

Ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması işi Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdır. 1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 1918-ci il martın 31-i "Azərbaycanlıların soyqırımı günü" elan edilmişdir.

Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. 1918-ci ilin aprel - may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar olunub. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksi 2013-cü il sentyabrın 18-də ucaldılıb.

***Afaq Sadıqova,***
***Jurnalistika ETL, elmi işçi***

## "Bakı Dövlət Universiteti ilə Məhtimqulu adına Türkmən Dövlət Universiteti arasında əməkdaşlıq haqqında Protokol" imzalanıb

**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi keçirilib. Mərasimdə Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulanıb, Azərbaycan və Türkmənistan prezidentlərinin qarşılıqlı səfərlərinin mütəmadi həyata keçirildiyi qeyd olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan



Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

"Bakı Dövlət Universiteti ilə Məhtimqulu adına Türkmən Dövlət Universiteti arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov və Türkmənistanın Təhsil naziri Mammetmırat Geldinıyazov imzalayıblar.

Protokolda universitetlərarası əməkdaşlığın qurulması və inkişaf etdirilməsi, tələbə və akademik heyət arasında mübadilə proqramlarının tətbiq olunması, elmi tədqiqat layihələrinin həyata keçirilməsi istiqamətində əməkdaşlıq imkanlarının araşdırılması, tərəflər arasında qarşılıqlı bilik və təcrübə mübadiləsinin inkişaf etdirilməsi məqsədilə konfrans, simpozium, elmi seminar və laboratorial tədqiqatların aparılmasını təşkil etmək nəzərdə tutulub.

## Milli Məclisin deputatları sırasında Universitetimizin professorları da var

***VI çağırış Milli Məclisin ilk iclası uğurlu fəaliyyətin anonsunu verdi. Parlamentə xanım deputat sədrlik edəcək. Yeni tərkibdə Milli Məclisin deputatları sırasında Azərbaycan ali məktəblərinin flaqmanı Bakı Dövlət Universitetinin professorları da var.*** Belə ki, BDU-nun Psixologiya kafedrasının müdiri Bəxtiyar Əliyev Milli Məclisin Elm və təhsil komitəsinə, Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinə, Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinə, Azərbaycan Tarixi kafedrasının professoru Fəzail İbrahimli vitse-spiker, eyni zamanda İctimai birliklər və dini qurumlar komitəsinə sədr seçilib.

Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Türk filologiyası kafedrasının professoru Jalə



Əliyeva, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının professoru Musa Qasımlı, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov, Genetika kafedrasının müdiri Kamilə Əliyeva da yeni tərkibli parlamentdə yer alıblar.

*Azərbaycan Respublikasının altıncı çağırış Milli Məclisinin fəaliyyətə başlaması münasibətilə Millət vəkillərini təbrik edir, müstəqil Azərbaycanın və bütövlükdə Azərbaycan xalqının rifahı naminə görüləcək bütün işlərdə uğurlu fəaliyyət arzulayırıq.*

# Novruz Bayramı: tarixi və ənənələri

*(əvvəli 1-ci səhifədə)*

*Zövqü saf olan, dünya görüşü geniş olan hər bir kəs Allahın buyurduğu kimi yaxşını pisdən ayırmağı bacarmalıdır. Dini ayinlər sırasında məhz Novruz bayramına aid olan ilin təhvil verilməsinə xas duaların verilməsi, namazlarda yer alan ayinlərdəndir.*

Azərbaycan xalqının milli adət-ənənəsinə görə Novruz bayramında küsülülər barışmalı, qohumlar bir-birini ziyarət edib, bayram süfrələri açmalıdırlar. İnsanlar baharın gəlişi ilə torpağın əkib-becərilməsinə başlayır, bağban meyvə ağaclarını budayır, uşaqlar novruzgülü dərmək üçün dağlara, yamaclara, meşələrə üz tuturlar.

Xalq adət-ənənəsinə görə Novruz bayramından öncə sürən Boz ay ərzində su, od, yel və torpaq çərşənbələri qeyd edilir. Xalq mövhumatına əsasən, birinci çərşənbə günü su və su mənbələri təzələnir və hərəkətə gəlir, ikinci çərşənbədə çatılan od yeni həyatın, baharın və istiliyin gəlişini simvolizə edir, üçüncü çərşənbədə isti və təravətli külək bütün canlılara, hər yerə nüfuz edərək yatmışlara təsir göstərir. Dördüncü çərşənbədə torpaq oyanır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlməsindən xəbər verir. Bağ-bostan, dirrik yerləri əkinə hazırlanır. Torpaq çərşənbəsində evlərdə yaşıllıq nişanəsi, təbiətin canlanmasının rəmzi olan səməni göyərmiş olur.

Novruz bayramı qədim ənənələrlə, oyunlarla zəngindir. Qədim ənənələrdən «Kos-kosa» oyununu (baharın gəlməsi rəmzi) və falabaxmanı qeyd etmək olar.




*Novruz bayramı türk-müsəlman dünyasında da təmtəraqla keçirilir. Bu bayramı farslar «Nouruz», özbəklər «Navruz», türkmənlər «Novruz», qazaxlar «Naurız», qırğızlar «Nooruz», türklər «Nevruz», Krım türkləri «Navrez» adlandırırlar.*

***Novruzun ən yüksək zirvəsi köhnə il öz səlahiyyətlərini təzə ilə verəndə olur. Bu anda köhnə ənənəyə görə Novruzun şərəfinə top və tüfənglərdən yaylım atəşləri açılır. Bahar qızı, Kosa və Keçəl Novruzun əsas atributlarıdır.***

Novruz bayramı türk-müsəlman dünyasında da təmtəraqla keçirilir. Bu bayramı farslar «Nouruz», özbəklər «Navruz», türkmənlər «Novruz», qazaxlar «Nauriz», qırğızlar «Nooruz», türklər «Nevruz», Krım türkləri «Navrez» adlandırırlar.

Hər bir xalq bu bayramla bağlı etnik, yerli, milli xüsusiyyətlərinə uyğun, özünəməxsus mövsüm adətləri, mərasim nəğmələri yaradıb. Ümumilikdə, Novruz Azərbaycan, İran, Türkmənistan, Tacikistan, Özbəkistan, Pakistan, Qazaxıstan, Qırğızıstan, Türkiyədə xüsusi təntənə ilə qeyd edilir. Albaniyada Novruz bayramı dini bayram kimi Bəktaşilik təriqətinin davamçıları tərəfindən qeyd edilir.

Azərbaycanda Novruz bayramı adətən martın 20-21-i qeyd edilir.

*Biz də xalqımıza bahar təravətli günlər, xoşbəxtlik və firavan həyat arzulamaqla, Novruz bayramının işğal altında olan Dağlıq Qarabağın azad edilərək, böyük coşqu və təntənə ilə bu bölgədə qeyd olunmasını diləyirik.*

***Aynur Qurbanqızı,***
***Nəşriyyat, komputer tərtibatçısı***



## UNİVERSİTET XƏBƏRLƏRİ

# Fransada “Tvininq” layihəsi çərçivəsində növbəti görüş

***Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və ölkənin ali təhsil müəssisələrinin prorektorlarından ibarət nümayəndə heyətinin “Tvininq” layihəsi çərçivəsində 2020-ci il 1-7 mart tarixlərində Fransaya səfəri baş tutub.*** Fransanın Ali Təhsil Nazirliyi, Beynəlxalq Pedaqoji Araşdırmalar Mərkəzi (CİEP), Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Versal St-Quentin-en-Yvelines (UVSQ), Cergy-Pontoise (UCP) və Strasburq Universitetlərində təşkil edilən görüşlərdə nümayəndə heyəti Fransa ali məktəblərində idarəçilik sistemi, pedaqoji innovasiyalar və tələbə həyatı, tələbələr üçün nəzərdə tutulmuş xidmətlərlə (tələbə evi, bələdçilik xidmətləri, kitabxana, dil mərkəzi) tanış olublar.



Fransanın Təhsildə Keyfiyyət Təminatı Agentliyində təşkilatın missiyası və funksiyalarına dair elmi seminarda təhsil proqramlarının tələbəyönümlü meyarlarının qiymətləndirilməsi barədə ətraflı məlumat verilib.

Fransa Ali Təhsil Nazirliyinin tədqiqatlar və innovasiyalar, eləcə də ali təhsilin mərkəzləşdirilməsi sahəsində əməkdaşlıq departamentinin rəhbəri Joakim Nassar ilə görüşdə beynəlxalq əlaqələr siyasətinin inkişafı və tələbələrin beynəlxalq əmək bazarlarına uyğunlaşdırılması sahəsində strategiya haqqında fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətində BDU-nu universitetin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru İradə Əliyeva təmsil edib. Avropa İttifaqının Tvinninq proqramı çərçivəsində “Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək” layihəsinin icrasına 2018-ci ilin aprel ayından başlanılıb. Layihə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Fransa, Litva və Latviyanın təmsil olunduğu konsorsium tərəfindən həyata keçirilir.

**BDU Mətbuat xidməti**

# Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərdiyi son illər ərzində müxtəlif elmi nailiyyətlərə də imza atmışdır

***Bakı Dövlət Univeristetində elmin və təhsilin inkişafı istiqamətində aparılan islahatlar Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Tələbə Elmi Cəmiyyətinin fəaliyyətində də öz əksini tapmışdır.*** *Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin əsas istiqamətləri tələbələrdə elmi tədqiqat işlərinə dair marağın yüksəldilməsindən, elmi-ideoloji şüurun yaradılmasından, elmi-praktiki layihələrin hazırlanmasına dair bilik və bacarıqların, həmçinin milli innovasiya sisteminin formalaşdırılmasından ibarətdir.*

TEC-in əsas məqsədi ixtisaslı kadrların hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsində, elmi-texniki potensialın qorunub saxlanılması və təhsilalanların elmi tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında fakültənin işinə kömək etməkdir.

Hal-hazırda cəmiyyətdə 50-dən artıq tələbə fəaliyyət göstərir. Bu tələbələr TEC-in rəhbər heyəti tərəfindən Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsindəki müxtəlif kafedralar üzrə yönləndirilərək elmi işlərə cəlb olunurlar. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Tələbə Elmi cəmiyyətinin elmi rəhbəri beynəlxalq münasibətlər kafedrasının baş müəllimi s.e.f.d Əlimusa İbrahimov və cəmiyyətin sədri II kurs tələbəsi Murad Ağayevdir. Tələbə Elmi Cəmiyyətində bakalavr və magistrlərlə yanaşı, artıq məzun olmuş fəxri üzvlər də var. Eyni zamanda Tələbə Elmi Cəmiyyətinin bir çox elmi fəaliyyətlərində fakültəmizin müəllimi, iqtisad elmləri doktoru, professor Amil Məhərrəmovun da böyük əməyi vardır.



Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərdiyi son illər ərzində müxtəlif elmi nailiyyətlərə də imza atmışdır. Belə ki, bu illərdə "Regionlarda iqtisadi inkşaf səviyyəsi", "Avtomobil nəqliyyatının ətraf mühitə iqtisadi təsiri", "Regionlarda işsizlik səviyyəsinin minimuma endirilməsi", “Rayonların iqtisadi inkşaf səviyyəsinin bir-biri ilə müqayisəsi", "Baş verən təbii fəlakətlərin kənd təsərrüfatına iqtisadi təsiri" və s. mövzuda elmi seminarlar, təlimlər və konfranslar keçirilmişdir.

*Bu illər ərzində Tələbə Elmi Cəmiyyətinin ən çox maraq doğuran layihəsi “Cəmiyyətin informasiyalaşmasının dövlətin daxili və xarici siyasətinə təsirinin iqtisadi, siyasi və sosial aspektləri” adlı elmi jurnalı olmuşdur.*

Bu illər ərzində Tələbə Elmi Cəmiyyətinin ən çox maraq doğuran layihəsi “Cəmiyyətin informasiyalaşmasının dövlətin daxili və xarici siyasətinə təsirinin iqtisadi, siyasi və sosial aspektləri” adlı elmi jurnalı olmuşdur. Məhz bu jurnalda bir çox bakalavr və magistr tələbələrinin elmi məqalələri çap olunmuşdur.

Bunlarla yanaşı tələbələrin fəaliyyəti nəticəsində Tələbə Elmi Cəmiyyətinin xətti ilə “Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik və diplomatik irsi ” mövzusu altında jurnal nəşr edilmişdir.

Hər il təşkil olunan Respublika səviyyəli konfranslarda bakalavr və magistratura pilləsində təhsil alan tələbələrin elmi məqalələri konfrans materialları şəklində nəşr edilir. Bu konfrans materiallarında digər universitetlərdə təhsil alan tələbələr də elmi məqalələrə çıxış edirlər.

Hal-hazırda sosial şəbəkələrdə Tələbə Elmi Cəmiyyətinin fəaliyyətini geniş şərh edən səhifə yaradılmışdır. Bu səhifədə TEC haqqında bütün elan və məlumatlar müəllim və tələbələrə çatdırılır. Daim böyüyən Coğrafiya TEC ailəsi öz fəaliyyətini yüksək səviyyədə həyata keçirir və bunun gələcəkdə də davam etdirilməsinə böyük səy göstərərək Bakı Dövlət Universiteti rəhbərliyinin etimadını qazanmağa çalışacaqdır.

***Əlimusa İbrahimov,***
***Beynəlxalq Münasibətlər və iqtisadiyyat fakültəsi, siyasi elmlər üzrə fəlsəfə doktoru***




# UNİVERSİTET XƏBƏRLƏRİ

## BDU-da nüvə tədqiqatlarına dair əməkdaşlıq sazişi imzalanıb

***Bakı Dövlət Universitetində Qazaxıstan Respublikasının Energetika Nazirliyi yanında Nüvə Fizikası İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutu, Rusiyanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutu və Bakı Dövlət Universiteti arasında nüvə tədqiqatlarına dair əməkdaşlıq sazişinin imzalanma mərasimi keçirilib.***

BDU-nun rektoru Elçin Babayev qonaqları salamlayaraq ölkəmizdə elm və təhsil sahəsində həyata keçirilən uğurlu dövlət siyasətindən, o cümlədən, BDU-nun beynəlxalq əlaqələrindən bəhs edib. Bakı Dövlət Universitetinin yeni inkişaf strategiyasından, təhsil, tədqiqat, innovasiya, sosial həyat və beynəlxalq əlaqələrin daha da təkmilləşdirilməsi sahəsində görüləcək işərdən danışaraq birgə əməkdaşlığın bu istiqamətdə faydalı olacağını vurğulayıb.

*Rusiyanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, akademik Viktor Matveyev çıxışında Rusiya və Azərbaycan arasında elmi əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini bildirib.* O, imzalanan sazişin əsas istiqamətlərindən birinin də nüvə tədqiqatları sahəsində gələcək çağırışlara və real inkişafa cavab verən elmi potensialın istehsalata inteqrasiyasına nail olmaq olduğunu qeyd edib.

Elmi-texniki əməkdaşlığın əhəmiyyətini vurğulayan AMEA-nın Fizika İnstitutunun direktoru, akademik Nazim Məmmədov çıxışında müasir elmin çağırışlarını və hazırda bir çox elmi istiqamətlərin multidisiplinar xarakter daşıdığını nəzərə alaraq, sazişin elmin, yeni texnologiyaların və innovasiya fəaliyyətinin inkişafı sahəsində əməkdaşlığın daha da genişləndirilməsi və tərəflər arasında müxtəlif sahələr üzrə əlaqələrin gücləndirilməsi məsələlərinə müsbət təsir edəcəyini bildirib.



*Qazaxıstan Respublikasının Energetika Nazirliyi yanında Nüvə Fizikası İnstitutunun baş direktoru Erqazi Kenjin ölkələrimiz arasında qarşılıqlı elmi əməkdaşlığın perspektivlərindən söz açaraq əməkdaşlıq sazişinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirərək, müştərək elmi əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinin vacibliyini önə çəkib.*

AMEA-nın birinci vitse-prezidenti, akademik İbrahim Quliyev birgə əməkdaşlığın əhəmiyyətini önə çəkərək, bugünkü sazişin tərəflər arasındakı elmi əlaqələri daha da dərinləşdirəcəyinə əminliyini ifadə edib.

*Sonra nüvə tədqiqatlarına dair əməkdaşlıq sazişi imzalanıb.*

Saziş qarşılıqlı əməkdaşlıq şəraitində tərəflərin elmi-texniki və tədris əlaqələrinin genişləndirilməsi, müştərək innovativ tədqiqat layihələrinin işlənib hazırlanması, birgə konfrans, seminar və simpoziumların, elmi-tədqiqat işlərinin və qrant layihələrinin həyata keçirilməsi, elmin son uğurlarından birgə bəhrələnmək məqsədi daşıyır.

**BDU Mətbuat xidməti**

## "Elmi işlərin yazılma qaydaları" adlı elmi-praktiki seminar keçirilib



***Filologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Elmi işlərin yazılma qaydaları" adlı elmi-praktiki seminar keçirilib.*** Seminarda elmi işlər üzrə dekan müavini Mehriban Əlizadə, TEC-in elmi rəhbəri Gülnar Axundova və TEC-in sədri Məleykə Mirzəli məruzə ilə çıxış ediblər. Mehriban Əlizadə yeni texnologiyaların ali təhsildə tətbiqi, təhsilin keyfiyyətinin təmin olunmasında Avropa standartlarının, ikili təhsil proqramlarının rolu və əhəmiyyətindən danışıb. O, elm və təhsilin vəhdətinin yeni tələblərə uyğun istiqamətdə aparılmasında innovasiyanı da mühüm faktor kimi qiymətləndirib. M.Əlizadə dissertasiya və buraxılış işlərinin yazılma qaydalarından, gənc tədqiqatçıların qarşısında dayanan vəzifələrdən bəhs edib.

Daha sonra əyani materiallar əsasında məqalə və tezislərin hazırlanmasının elmi və texniki cəhətləri, elmi məqalədə problemin qoyuluşu, həlli, araşdırmanın giriş, nəticə və xülasə hissələrinin yazılması ilə bağlı bir çox məqamlara aydınlıq gətirilib.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb, auditoriyanın çoxsaylı sualları cavablandırılıb.

## Cenevrə Universiteti ilə BDU arasında birgə əməkdaşlığın perspektivləri müzakirə edilib



**Birgə qrant layihələrinin həyata keçirilməsi, yay məktəblərinin təşkil olunması və nüfuzlu beynəlxalq jurnallarda elmi nəşrlərin hazırlanması üçün Cenevrə Universiteti ilə BDU arasında birgə əməkdaşlığın gələcək perspektivləri müzakirə edilib.**

***Nanoarəşdırmalar mərkəzində Cenevrə və Həştərxan Universitetlərinin müştərək layihəsi olan "Dayanıqlı su ehtiyatları üzrə təhsil şəbəkəsi"nin ekspertləri ilə elmi seminar keçirilib.*** Qonaqları salamlayan Mərkəzin direktoru Mustafa Muradov seminarın keçirilmə məqsədinin su ehtiyatlarının monitorinqi və idarə olunması, kəmiyyət və keyfiyyət göstəricilərinin təhlili, müasir dəyişmələri, BDU-da bu istiqamətdə görülən işlər barəsində fikir mübadiləsi aparmaq olduğunu vurğulayıb.

Su sistemlərindəki çirkləndiricilərin spesifikasına diqqət çəkən şəbəkənin rusiyalı direktoru, Həştərxan Universitetinin professoru Mixail Yegorov "Su ehtiyatları üzrə təhsil şəbəkəsi"nin yaranma səbəblərindən, şəbəkənin bu günə qədər həyata keçirdiyi layihələr barədə geniş məlumat verib. O qeyd edib ki, ekologiya, biomüxtəliflik və Xəzər dənizi hövzəsinin su ehtiyatlarına ətraf mühitin potensial təsir dairəsinin araşdırılması təhsil şəbəkəsinin əsas fəaliyyət istiqamətlərindəndir.

Su mikroorqanizmləri üzrə ekspert, Cenevrə Universitetinin professoru Vera Slaveykova "Dayanıqlı su ehtiyatları üzrə təhsil şəbəkəsi" ("Educational network for sustainable water resources") mövzusunda təqdimatla çıxış edib. Molekulyar ekotoksikologiya, su bioehtiyatlarının, balıqların, yosunların sənaye miqyasında yetişdirilməsi, akvakultura sahəsində müasir texnologiyaların tətbiq olunması və əldə olunan nəticələrin tədrisi kimi məsələlərə aydınlıq gətirib. Ekspert qeyd edib ki, təbii suların  əsas çirklənmə mənbələri sənaye və kommunal çirkab suları, radioaktiv tullantılar, istilik və atom elektrik stansiyalarının isti suları və atmosferdir.

Məruzə görüş iştirakçıları tərəfindən maraqla qarşılanıb və yekun müzakirədə BDU-nun elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Məmməd Rəcəbov, biologiya elmləri namizədi Çingiz Məmmədov və digər alimlərin iştirakı ilə geniş fikir mübadiləsi aparılıb. Görüşün sonunda birgə qrant layihələrinin həyata keçirilməsi, yay məktəblərinin təşkil olunması və nüfuzlu beynəlxalq jurnallarda elmi nəşrlərin hazırlanması üçün Cenevrə Universiteti ilə BDU arasında birgə əməkdaşlığın gələcək perspektivləri müzakirə edilib.

**BDU Mətbuat xidməti**

## Bakı Dövlət Universiteti ilə "Alexandru İoan Cuza" Universiteti arasında əməkdaşlıq genişlənir



***Bakı Dövlət Universiteti ilə Rumınıyanın "Alexandru İoan Cuza" Universiteti tərəfindən ERASMUS+KA107 tələbə-müəllim mübadiləsi layihəsi imzalanıb.*** Layihə çərçivəsində BDU-nun Fizika, Kimya, Biologiya fakültələrinin tələbələri 1 semestr müddətinə təhsillərini davam etdirmək, müəllimlər isə staj keçmək imkanları əldə edəcəklər. Bundan əlavə, rumıniyalı tələbə və müəllimlərin BDU-da dərslərini davam etdirməsi və mühazirə oxuması mümkün olacaq. Sözügedən əməkdaşlıq nəticəsində tələbə və müəllimlər həm beynəlxalq təcrübəyə yiyələnəcək, həm də müvafiq sahələr üzrə bilik və bacarıqlarını inkişaf etdirəcəklər. Adıçəkilən layihə üzrə əməkdaşlıq eyni zamanda tələbə və əməkdaşların dünyagörüşünün formalaşmasında və bu istiqamətdə irəliyə doğru addımların atılmasına da öz töhfəsini verəcəkdir.

Onu da qeyd edək ki, "Alexandru İoan Cuza" Universiteti Rumıniyanın Yassı şəhərində yerləşir. 1860-cı ilin oktyabr ayında təsis olunub və ölkənin ən qədim Universitetidir. 24000-dən artıq tələbəsi olan Universitet dünyanın 504 universiteti ilə əməkdaşlıq edir.

# Praktik dilin tərcümanı: professor Musa Adilov

Alimin "Niyə belə deyirik?" adlı elmi-populyar kitabı indi də çoxlarının stolüstü kitabıdır. Musa Adilovun bu kitabı onun öz xalqına nə qədər bağlı olduğunun göstəricisidir. Bu kitabda böyük alim xalq deyimlərini, xalqdan, milli kökdən gələn dil faktlarını izah etmiş, bu tip sözlərin etimologiyasını adi kəndlinin belə anlayacağı bir dildə bizə təqdim etmişdir. Bu bir folklor dilidir, bu bir xalqın deyimlərinin populyar etimologiyasıdır.


Professor Musa Adilov

***Mən Bakı Dövlət Universitetinin filologiya fakültəsinə çox bağlı adamlardan biriyəm. Bəlkə ona görə ki, mən bu Universitetdə oxuduğum illərdə bitirdiyim jurnalistika ixtisası filologiya fakültəsinin nəzdində bir şöbə idi və sonralar bu şöbə filologiyadan ayrılıb özü bir fakültə olanda, doğrusu, buna mən o qədər də sevinməmişdim. Çünki o zamandan hiss etmişdim ki, jurnalistika və filologiya bir-birinə çox bağlıdır və onların bir-birindən ayrılması jurnalistika ixtisasının xeyrinə ola bilməz. Və bir də o vardı ki, filologiya fakültəsinin Şamil Qurbanov, Abdulla Abbasov, Ağamusa Axundov, Tofiq Hacıyev və bir çox digər professorları öz yaradıcılıqları ilə mətbuata çox bağlı adamlar idilər və onların əhatəsində olmağın özü bir şərəf işi idi. Filologiyanın jurnalistika ilə bağlı istedad sahiblərindən biri də professor Musa Adilov idi. Musa müəllim mətbuat dilinin elmi əsasları ətrafında tədqiqatlar aparan, hətta "Qəzet dili" kimi o dövrün fundamental kitabını ortaya qoyan bir tədqiqatçı idi.***

Məni Musa Adilovla dissertant-rəhbər münasibətləri birləşdirdi. O zamandan Musa müəllimi daha yaxından tanıdım. Öyrəndim ki, o əslən Qubalıdır. 1930-cu ildə Qubanın Aydınkənd kəndində doğulub. Orta təhsilini elə bu kənddə alıb. Dil və ədəbiyyata sevgisi də elə bu məktəbdən başlayıb. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1957-1967-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb, 1967-ci ildən Universitetdə filologiya fakültəsinə - bitirdiyi fakültəyə işə qəbul olunub. 1969-cu ildə elmlər doktoru elmi dərəcəsi alıb, 1970-ci ildə professor vəzifəsini tutub. 1991-1996-cı illərdə filologiya fakültəsinin Ümumi dilçilik kafedrasına rəhbərlik edib. Musa Adilov istər qrammatikanın sırf elmi istiqamətlərində olsun, istərsə də, mətbuatın dili olsun - tədqiqata cəlb etdiyi bu sahələrin hər birində praktik göstəricilərə üstünlük vermiş, beləliklə, XX əsrin ikinci yarısı Azərbaycan dilinin işlək istiqamətlərinin epoxal vəziyyətini təhlil etmişdir. Onun tədqiqatları qeyd etdiyimiz dövrün milli dil ətrafındakı fundamental problemlərini öyrənəcək olan gələcək dil tarixçiləri üçün etibarlı bir elmi mənbədir. Özünün "Klassik ədəbiyyatımızda dil və üslub", "Məhəmməd Füzulinin üslubu və poetik dili" kimi əsərlərində ədəbi-bədii dilimizin müəyyən tarixi zaman kontekstindəki problemlərini öyrənən alimin gələcək dil tarixçiləri üçün yaratdığı əsərlərin fundamentallığı da heç bir şübhə doğurmur.

Professor Musa Adilov tələbələrinə, dissertantlarına, aspirantlarına ata qayğısı, ata nəvazişi göstərən bir alim-insan idi. Mən bunu ən azı öz həyatımda, elmi rəhbərimin mənə münasibətində görmüşəm. Bu gün vaxtilə tələbəsi olmuş hansı alimi dindirirsən Musa Adilovun elmi-pedaqoji bacarığından və tələbələrinə məhəbbətindən sevgi ilə danışır. İstedadlı dilçi alim və pedaqoq, uzun müddət filologiya fakültəsinin dekanı olmuş, indi filfakın nəzdindəki Müdafiə Şurasının sədr müavini, professor Elbrus Əzizov da vaxtilə uzun müddət onunla bir yerdə işləyib. Elbrus müəllim həm yaş etibarı ilə, həm də fəaliyyət xətti üzrə mənim də müasirimdir və onun Musa müəllimə olan hörməti bizi daha çox birləşdirir.

Filologiya fakültəsi, yuxarıda da dediyim kimi, həm elmi-praktik istiqaməti, həm də müəllim kollektivi ilə mənə çox doğma bir məkandır. Elbrus müəllimlə onun çalışdığı Türkologiya kafedrasında oturmuşuq və söhbət Musa müəllimdən düşür. E.Əzizov bu insan haqqında o qədər sevgi ilə danışır ki, mən telefonumu qurub onun fikrini elektron yazıya köçürürəm. Elbrus müəllim səlis nitqi ilə belə deyir:

"Professor Musa Adilov Azərbaycan filologiyasında əvəzolunmaz yeri olan görkəmli dilçi alimdir. Adətən hər bir alim, hər bir müəllim özünə xas olan fərdi keyfiyyətləri ilə seçilir. Bir alim kimi, bir müəllim kimi Musa Adilov nəzəri hazırlığı, zəhmətsevərliyi və incə filoloji təhlil qabiliyyəti ilə fərqlənirdi. Musa müəllim dilçiliyin dil nəzəriyyəsi, müasir dil və üslubiyyat sahələrində ardıcıl olaraq fəaliyyət göstərmiş və dəyərli əsərləri ilə Azərbaycan dilçiliyini zənginləşdirmişdir. O, həmişə az öyrənilmiş və ya heç öyrənilməmiş, bəzən isə adi görünən mövzularda yazmış, lakin əsas olan budur ki, filologiya üçün önəmli elmi nəticələr əldə etmiş, necə deyərlər, adi ilə qeyri-adini, yəni elmi həqiqəti görməyi bacarmışdır. *Görkəmli alimin "Azərbaycan dilində sintaktik təkrarlar", "Azərbaycan dilində təqlidi sözlər", "Azərbaycan dilinin semasiologiyası" (Z.Verdiyeva və F.Ağayeva ilə birlikdə) "Niyə belə deyirik", "Qanadlı sözlər" və s. kitabları, bir sıra elmi məqalələri Azərbaycan dilçiliyinin diqqətəlayiq əsərlərindən sayılır. Yadımdadır ki, ötən əsrin 70-80-ci illərində onun "Niyə belə deyirik", "Qanadlı sözlər" kitabları həm elmi ictimaiyyətin, həm də kütləvi oxucuların böyük marağına səbəb olmuşdu.*

Musa müəllim güclü bədii dil duyumu olan alim idi. Onun elmi fəaliyyətində bədii dil məsələlərinin tədqiqi geniş yer tutur. Musa Adilov sənətkar və dil problemi ilə müntəzəm məşğul olmuş, görkəmli sənətkarların əsərlərinin dil və üslub xüsusiyyətlərinin elmi təhlilini vermişdir.

Bir sözlə, professor Musa Adilovun zəngin və çoxşaxəli yaradıcılığı Azərbaycan dilçiliyinin parlaq səhifələrindən biridir". Mən professor Elbrus Əzizova Musa Adilov haqqında dediyi bu dəqiq sözlərə görə çox minnətdaram.

Musa Adilovun ruhuna eyni minnətdarlığı mən, mərhum Tofiq Hacıyev, Abdulla Abbasov, Təhsin Mütəllimov kimi professorlardan da çox eşitmişəm. Özümə gəldikdə isə etiraf edim ki, mənim dissertasiyamı surətlə - cəmi üç ildən də az bir vaxtda müdafiə etməyimin əsas səbəbkarı elmi rəhbərim olub. Mən tədqiqat işimlə bağlı hər hansı bir məqaləni gecikdirəndə onun xoş sifəti sərtləşərdi. Məni elə danlayırdı ki, məqaləni 3-4 günə bitirib ona rəyə verirdim. Universitet həyatında təmənnalı, dissertanta, aspiranta etinasız, "nə vecimənin kubu" prinsipi ilə yanaşan elmi rəhbərləri də çox görmüşük. Amma professor Musa Adilov şəxsən mənim dissertasiyamı cəmi altı günə oxuyub qaytardı və kafedraya müzakirəyə təqdim etdi. Əlbəttə, bir az tez, bir az gec mən müdafiə edəcəkdim. Amma Musa müəllim məni tələsdirməklə həm də elmi dərəcədən irəli gələn maaş artımını da mütləq nəzərə alırdı.

Musa müəllimlə biz dost idik. Bizi o dövrün mətbuatı da birləşdirirdi. Onun mətbuat dili haqqında silsilə məqalələri o dövrün ən mötəbər qəzetlərində - "Kommunist", "Bakı" kimi ciddi mətbuat orqanlarında dərc edilirdi.

Qeyd edim ki, klassik mətbuatımızın H.Zərdabi, M.F.Axundov, Ö.F.Nemanzadə, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Firudin bəy Köçərli kimi korifeyləri ana dili, mətbuat dili haqqında maraqlı yazılarla vətəndaşlıq işi görmüş, bu sahədə klassik ənənə yaratmışlar. Lakin dilimizin mətbuat üslubunun fundamental şəkildə tədqiqi professor Musa Adilovun yaradıcılığı ilə başlamışdır. Musa Adilov bizə öyrədirdi ki, ana dilinin əsas inkişafı milli mətbuatın yaranması ilə başlayır və dilin taleyi mətbuatla bağlıdır. Hətta bədii ədəbiyyatın dilə gətirdiyi yeni sözlər də öz kütləviliyinə, xalq tərəfindən qəbul olunmasına görə mətbuata borcludur. Və deyirdi ki, indi qəzetlərin, jurnalların çoxalması, bu sahəyə səriştəsiz adamların gəlməsi dilimizin inkişafını təhlükə altına ala bilər və dilin korlanması faktına çevrilə bilər. Musa Adilov - bu fikirlərin müəllifi artıq 25 ilə yaxındır ki, həyatda yoxdur. lakin mən bəzən o böyük dilçi alimin hələ 50 il bundan əvvəl dediyi bu fikirlərin nə qədər haqlı və bu gün üçün də aktual olduğunu anlayıram. Bu günün tələmtələsik informasiya portalları, internet dünyası Azərbaycan dilini eybəcər hala salmaq cəhdinə düşən vasitələr kimi cəmiyyəti narahat etməkdədir. Ancaq çox təəssüf ki, dilimizin korlanması sahəsində at oynadan qeyri peşəkar, savadsız "jurnalistlərin" qarşısına çıxan Musa Adilovlar yox dərəcəsindədir.

***Musa müəllim praktik dilçi idi. Onun əsərləri rəflərdə yatıb qalmırdı. Dilimizin bir çox istiqamətləri onun tədqiqatlarını əks etdirən populyar kitablarında öz əksini tapırdı. Alimin "Niyə belə deyirik?" adlı elmi-populyar kitabı indi də çoxlarının stolüstü kitabıdır. Musa Adilovun bu kitabı onun öz xalqına nə qədər bağlı olduğunun göstəricisidir. Bu kitabda böyük alim xalq deyimlərini, xalqdan, milli kökdən gələn dil faktlarını izah etmiş, bu tip sözlərin etimologiyasını adi kəndlinin belə anlayacağı bir dildə bizə təqdim etmişdir. Bu bir folklor dilidir, bu bir xalqın deyimlərinin populyar etimologiyasıdır.***

Musa Adilov çox nümunəvi bir ailə başçısı olub. O öz övladlarını daha çox dəqiq elmlərə yönəldib. Varlığı ilə fəxr elədiyi qızı Gülnarəyə fizika ixtisası almağı tövsiyə etmiş və fizik qızının Kəmaləddin Qocayev kimi istedadlı bir fizik oğlanla ailə qurmasına xeyir-dua vermişdir. Bu gün bu iki fizikin Turan adlı nəvəsi Almaniyanın güclü universitetlərindən birinin tələbəsi adını qazanıb. Bu cavan nəvə elə orta məktəbin son sinfindən informasiya texnologiyasını elmi-praktik cəhətdən yüksək səviyyədə mənimsəmiş bir gəncdir.

Musa Adilov və ailəsi. Mən bu insanı ailəsinə bağlı bir ər, bir ata kimi də yaxşı tanıyırdım. Bu yerdə sözü əziz müəllimimin yadigarı- fizika müəlliməsi, qızı Gülnarə xanıma verirəm. Gülnarə xanım deyir:

"Atam ziyalı, mömin müsəlman ailəsində böyüyüb. Ata babası axund, ana babası isə hacı olub. Əmisi və dayısı da kamil ruhani təhsili almış şəxslər olublar. Anasını erkən yaşlarında itirib. 9 yaşında olarkən atası uşağının istedadını görüb Bakıya - bacısının yanına gətirib. Beləliklə, atam bibisinin himayəsində yaşayaraq, orta təhsilini Bakıda davam etdirib. Yaşadığı maddi sıxıntı onu üzmür, əksinə, dərsdən aldığı zövq, sevinc onu daha da ruhlandırar, qol-qanad verərdi. Bir sözlə, müəllimləri onun üçün ən müqəddəs varlıq, məktəb isə qibləgah olub. Orta məktəb illərində ona gündəlik verilən yemək pulunu yığar, özünə kitab alarmış... Çox qəribədir ki, atam dəqiq fənlərə xüsusi maraq göstərib, riyaziyyatı çox sevib. Hamı da onu riyaziyyatçı kimi görürdü. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra sənədlərini Moskvada Bauman adına Texniki İnstituta vermiş, lakin maddi vəziyyətin ağırlığı onu Bakıya qaytarmış, müəllimlərinin təkidiylə BDU-nun filologiya fakültəsinə qəbul olunmuşdur. Müəllimi, mərhum fizik Kəriş Köçərli atamın bu seçimindən bərk əsəbləşmiş "heyif mənim zəhmətimə" demişdi. Amma illər sonra həm müəllim, həm də şagird 1958-ci ildə eyni gündə namizədlik dissertasiyası müdafiə etmiş, ondan sonra K.Köçərli atamla "barışmışdı"... Görünür, bu səbəbdəndir ki, Musa Adilov genefondunun davamçıları olan övladları və nəvələri içərisində filoloqlarla yanaşı, fizik və riyaziyyatçılar da var. Həmişə deyərdi ki, ən yaxşı liriklər elə fiziklər olur.

Atam bizə tövsiyə edirdi ki, elmin verdiyi zövqə heç nə çatmaz. Elmə yiyələnməyə can atın, siz yalnız bu yolla öz həyatınızı qura bilərsiniz".

*Gülnarə xanım bu yerdə kövrələr və daha danışa bilmir. Mən ona təsəlli verirəm:*

*-Mənim insanlıq və elm fəlsəfəsinin zirvəsində dayanan, praktik dilçiliyimizin tərcümanı olan belə bir elmi rəhbərim, müəllimim, nəhayət, çox sevdiyim bir dostum olub: Musa Adilov!*

**Cahangir Məmmədli,**
*Yeni Media və kommunikasiya nəzəriyyələri kafedrasının müdiri, professor*

# Böyük Britaniyanın Oksford Universitetində kollokvium keçirilib

**27-28 fevral 2020-ci il tarixində Böyük Britaniyanın Oksford Universitetinin Ertegun House Mərkəzində Bərdə şəhərinin Orta əsrlər arxeologiyasına həsr olunmuş kollokvium keçirilib.**

Bərdənin Arxeoloji Tədqiqatları layihəsi 2013-cü ildə dünyanın ən qocaman və nüfuzlu universitetlərindən biri olan Oksford Universitetinin strukturunda Azərbaycanın, Qafqazın və Mərkəzi Asiyanın tarixinin, dillərinin və mədəniyyətlərinin öyrənilməsi məqsədilə daimi əsaslarla yaradılmış Nizami Gəncəvi Mərkəzinin çox vacib elmi təşəbbüslərindən biridir.

Elmi əsərlərin yüksək akademik səviyyədə tərcüməsi, beynəlxalq konfransların təşkili, əlyazmaların öyrənilməsi, doktorant və magistrantların hazırlanması kimi Mərkəzin həyata keçirdiyi bir çox maraqlı layihələr arasında Bərdə şəhərində aparılan arxeoloji tədqiqatlar xüsusi yer tutur. Arxeoloji ekspedisiyaların əsas məqsədlərindən biri dünya elmi ictimaiyyətinə Azərbaycanın bu şəhərinin qədim irsi və zəngin tarixi haqqında daha dolğun məlumat verməkdir. Kollokviumun keçirilməsindən bir gün əvvəl SOAS Universitetinin professoru Oksford Universitetinin Xəlili Tədqiqat Mərkəzinin İncəsənət tarixi və Arxeologiya kafedrasını təmsil edən Skott Redfordun mühazirəsi keçirildi.

M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin İdarə Heyətinin üzvü, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri akademik Nərgiz Paşayeva qonaqları salamlayaraq onları burada görməkdən çox məmnun olduğunu, Qafqazın tədqiqinə dəyərli töhfə verəcək və bu sahədəki müəyyən boşluqların doldurulmasına imkan yaradacağını da əlavə etdi.

# Bolonya universiteti dünyanın zəngin tarixi olan qədim universitetlərindən biridir

## İtaliyanın universitetlərinə necə daxil olmaq olar?

## Dünyanın məşhur ali təhsil ocaqları

*İtaliya dünyanın ən gözəl ölkələrindən biridir. İtalyan dilinin İtaliyada öyrənilməsi bir o qədər çətin deyil. Ali təhsil müəssisələrində təhsil italyan və ingilis dillərində tədris olunur. Orada ali təhsil, universitetlərdən, incəsənət akademiyalarından, konservatoriyalardan, idman institutlarından və s. ibarətdir. İtaliyanın təhsil sistemi şüşə, keramika, rəssamlıq və s. ixtisasları üzrə çox məşhurdur. Onlarda həmçinin dizaynerlərin hazırlandığı, naşir və reklamçı peşələrinin tədris olunduğu sənət institutları vardır. Heykəltəraşlıq, rəssamlıq, aktyorluq və s. ixtisasları incəsənət akademiyalarında tədris olunur. İtaliya dizayn və moda (dəb) üzrə diplom verilməsi sahəsində dünyada birinci ölkədir.*

***<u>İtaliyanın universitetlərinə necə daxil olmaq olar?</u>***

İtaliyanın nəfis sənət akademiyasına kimi ali təhsil müəssisələrinə abituriyentlər ilk sınaqların nəticələrinə əsaslanaraq imtahansız qəbul olunur. İtaliyanın ali təhsil müəssisələrində tədris ili oktyabr-noyabr aylarında başlayır və yaya kimi bitir. Bu dövr ərzində tələbələr üç sessiyanı müvəffəqiyyətlə verməlidir. Fakültədən asılı olaraq bir neçə imtahanın verilməsi məcburidir, qalanları isə tələbələrin seçimindən asılıdır. Bundan başqa, imtahanların verilmə qrafikləri fərdi tədris planına müvafiq olaraq tələbələrin özləri tərəfindən tərtib olunur. İtaliya universitetlərində dərslərdə iştirak etmək məcburidir və imtahanlarda müvəffəqiyyət qazanmaq ancaq müstəqil hazırlıqdan asılıdır: imtahanlar yazılı və şifahi olur. Qeyd etmək lazımdır ki, İtaliya ali təhsil müəssisələrində imtahan biletləri olmur. İtaliya universitetlərində tədris müddəti 4 ildən 9 ilə qədər davam edir. Bakalavr dərəcəsinə müvafiq olan birinci diplomu tələbələr dərslərin başlanmasından 4-6 il keçdikdən sonra seçilmiş ixtisasdan asılı olaraq əldə edirlər. Bakalavrdan sonrakı pillə magistr pilləsidir. Magistr pilləsində tədris müddəti 3 ildir.

***<u>İtaliyada bütün təhsil proqramları müxtəlif növ buraxılış diplomlarının alınması ilə nəticələnir:</u>***

klassik, linqvistik, texniki, idarəetmə, iqtisad və s. Bu diplomların hər biri İtaliyanın ali təhsil məktəblərinə qapı açır. 1998-1999-cu ildən bu məktəblərdə məzunların ixtisaslaşması (hazırlığın istiqaməti) başladı. Burada ali təhsilin üstünlükləri nədən ibarətdir: İtaliyada dövlət universitetlərində illik təhsil haqqı 500 avroya yaxındır, özəl ali məktəblərində isə 8500-25000 avrodur.

***<u>Bolonya Universiteti (Universita di Bologna).</u>***

Bolonya universiteti dünyanın zəngin tarixi olan qədim universitetlərdən biridir. Bu təhsil müəssisəsinin yaranma tarixini dəqiq təyin etmək mümkün deyil, lakin tarixçilərin əksəriyyəti 1088-ci ili yaranma tarixi kimi əsas götürür. Onun yaranma tarixinin məqsədi Roma hüququnun öyrənilməsi olmuşdur, lakin bu gün onun tərkibinə 23 fakültə, həmçinin İtaliyanın şimalında yerləşən düşərgələr və Buenos-Ayresdə yerləşən düşərgə (filial) daxildir. Bolonya Universitetinin hüquq fakültəsi dünyada ən yüksək təhsil ocaqlarından biri sayılır. Bolonya Universiteti dünyanın 200 ən yaxşı ali təhsil müəssisələrinin siyahısına daxildir və orada təhsil almaq 900 il əvvəl olduğu kimi şərəfli və nüfuzludur. Bolonya universitetinin tarixi, böyük mütəfəkkirlərin və alimlərin tarixinin bir hissəsidir, bu isə Avropa mədəniyyətinə nəzər salınan zaman universitetin adının çəkilməsini, xatırlanmasını zəruri edir. Astronom Nikolay Kopernikin sözlərinə görə, Yer kürəsinin fırlanması haqqında fikir ilk dəfə 1497-ci ildə, onun Bolonya Universitetində təhsil aldığı zaman ağlına gəlmiş və bütün sonrakı illər ərzində o öz fikrini təsdiq etmək üçün sınaq aparırdı.

***<u>1605-ci ildə Bolonya Universitetinin professoru Aldrovandi tərəfindən yaradılmış kitabxana onun parlaq nailiyyəti sayılırdı.</u>***

O, dünyada ən qədim kitabxana olmaqla həm də ən qiymətli kitabxanalardan biri kimi hesab olunurdu. Orada təxminən 250 min kitab və 1350 dövrü nəşr saxlanılır. Bu təhsil müəssisəsinin Recio-Emiliyada, İmolada, Ravennada, Forlidə, Çezendə və Riminidə regional mərkəzləri və xaricdə Argentinanın paytaxtı Buenos-Ayresdə bir filialı vardır. Hazırda universitet 128 ixtisasda bakalavr dərəcəsi verir. Universitetin nəzdində həm də müxtəlif ixtisas məktəbləri, elmi mərkəzlər və doktoranturalar fəaliyyət göstərir.



*Ayaz Musayev,*
*Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının baş müəllimi*

# Metsenatlıq məktəbi: sabaha inam çağı

*XIX əsrin ikinci yarısı, XX əsrin əvvəlində Azərbaycanda, xüsusilə Bakıda kapitalizmin surətli inkişafı tarixi həqiqətdir. Bakı neft şəhəri kimi tanındıqca buraya Rusiyadan, İrandan, digər qonşu ölkələrdən fəhlə axını surətləndi və bu axın özü də kapitalizmin, burjuaziyanın formalaşmasına xidmət etdi. Bakıda Zeynalabdin Tağıyev, Musa Nağıyev kimi neft maqnatları meydana çıxdı. Bu sahibkarlar sırasında Zeynalabdin Tağıyev Azərbaycanda maarifçiliyin, təhsilin inkişafına çox dəstək oldu. Azərbaycanın Nəriman Nərimanov kimi qiymətli oğulları onun köməyi ilə Rusiyanın qabaqcıl təhsil müəssisələrinə oxumağa göndərildi.* Gürcüstanın məşhur Qori seminariyasının bir sıra müdavimləri - Azərbaycanlı metsenatların köməyi ilə təhsil aldılar.

Zeynalabdin Tağıyev Azərbaycan maarifçilər hərəkatının nümayəndələrinə daimi kömək göstərmişdir. Milli mətbuatımızın bünövrəsi olan "Əkinçi" qəzetinin yaranmasında, Bakıda qızlar məktəbinin açılmasında Hacının böyük maliyyə dəstəyi tarixin səhifələrində qalmaqdadır. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan xeyriyyəçilik - metsenatlıq məktəbi sovet ideoloji dönəmində unutduruldu və bir də ölkəmiz müstəqillik qazandıqdan sonra yenidən meydana çıxdı. Bu gün xeyli sayda iş adamını misal göstərmək olar ki, Azərbaycanda hər hansı bir sahənin inkişafına kömək göstərməkdədir. Xaricdə oxuyan azərbaycanlı tələbələri, məsələn, Türkiyə, Rusiya Universitetlərində bəzi tələbələri təqaüdlə təmin edən iş adamları vardır.

Əlbəttə, Azərbaycanın müasir iqtisadi inkişafı dövlətimizin öz vətəndaşlarını dünyanın hər yerində oxutmaq qüdrətindədir. Dövlətimiz çoxsaylı dövlət təhsil müəssisələrini, universitet və institutları yüksək səviyyədə maliyyələşdirməkdədir. Lakin məsələ həm də burasındadır ki, dövlətin oxutduğu, universitetlərimizi bitirmiş yüzlərlə iş adamı var ki, onlar bizim tarixi xeyriyyəçilik məktəbimizi daha yüksək və rəsmi səviyyəyə qaldıra bilərlər.

İngiltərənin 90 min tələbəsi olan Oksford Universitetinin neçə-neçə sahibkar məzunu öz Universitetlərinə milyonlarla, bəzən milyardlarla dollarlıq maliyyə yardımı göstərirlər. Bu tip Universitetlərin məzunları sırasında saysız-hesabsız Nobel mükafatçıları var. Məsələn. ABŞ-ın bəzi Universitetlərində 50-dən çox Nobel mükafatçısı var. Belə universitetlərin bu qələbəsi birbaşa həm də məzunların xeyriyyəçilik missiyası ilə bağlıdır. ABŞ-ın indiyədək 7 prezidenti Harvard Universitetinin məzunu olmuşdur. Nəzərə almaq lazımdır ki, müstəqil Azərbaycanımızın qurucusu, dövlətçiliyimizin müasir səviyyəyə çatmasında misilsiz rolu olan dünya şöhrətli Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunudur. Onun universitetimizə göstərmiş olduğu misilsiz qayğıları bu gün öz səmərəsini verməkdədir. Biz inanırıq ki, yaxın gələcəkdə Bakı Dövlət Universitetinin məzunu olmuş imkanlı iş adamları xalqımızın mədəni dəyərləri sırasında ilk yer tutan bu doğma təhsil ocağının XXI əsrin çağırışlarına uyğun olması məqsədilə öz xeyriyyəçilik fəaliyyətlərini göstərmək təşəbbüsündə olacaqlar.

**Dövlət büdcəsi, dövlət qayğısı öz yerində, amma məzun qayğısının dünya təcrübəsi də çox şeyi dəyişə bilər.**

***Günel Mehdizadə (Bayatlı)***

# Zarafatlaşdığımız 1 aprel



## Ümumiyyətlə aprelin ilk günündə zarafat etmənin Fransada 5 əsrlik bir ənənə olduğunu görmək mümkündür

***Tam olaraq ortaya çıxması ilə bağlı bəlli bir tarixi olmayan «Aldatma günü» haqqında olan yazıları incələdiyimdə maraqlı və düşündürücü detallarla üzləşirik. Ümumiyyətlə aprelin ilk günündə zarafat etmənin Fransada 5 əsrlik bir ənənə olduğunu görmək mümkündür. Mövzu ilə bağlı ciddi araşdırmalar aparan Gabriella Kalapesin də qeyd etdiyi kimi, sözügedən günün tarixi ilə əlaqədar onlarla fikir mövcuddur və sadəcə bəziləri digərlərinə nisbətdə daha yaygındır və bilinir.***

*Hər halda zarafat etmək və hətta bəzən əndazəsini belə gözləmədən qarşımızdakı insanı aldatmaq üçün səbrsizliklə gözlədiyimiz, fransızların "Poisson d'Avril" (Aprel Balığı) və ya "April Fools's Day" (Axmaqlar Günü) adlandırdıqları bu özəl günün tarixi ilə bağlı bir neçə maraqlı məqamları bölüşmək istərdim*

***1-ci məqam***

Deyilənə görə, XV əsrin sonlarında xaçlı ordusu İspanyadakı Əndəlus müsəlmanlarının son qalasını mühasirəyə alır. Mühasirənin uzun sürməsinə rəğmən, qış aylarının da təsiri ilə qala müdafiə oluna bilir. Qalanı almağın çətin olacağını və bu zaman böyük itki verəcəyini anlayan xaçlı ordusunun komandanı hiyləyə əl atmaq qərarına gəlir.

Ən sonunda 31 mart gecəsi qalanın önünə gələrək, bir əlində Quran, digər əlində İncil, - «Bu iki kitab üzərinə and içirəm ki, təslim olsanız bu axşam sizə bir şey etməyəcəm, canlarınız bağışlanacaq və sərbəst buraxılacaqsınız», - deyir. Qalanın müdafiəçiləri müqəddəs kitab üzərinə edilən anda etibar etdiklərindən onlara toxunulmayacağına inandıqlarına görə təslim olurlar.

Sabahı gün, yəni aprelin 1-də komandan bütün müsəlmanların öldürülməsi əmrini verir. Əmrə kəskin etiraz edən müsəlmanlar, - «Müqəddəs kitablar üzərinə and içdiniz, söz vermişdiniz», - dediklərində xaçlı komandanı, - «Mənim sözüm dünən axşam üçün idi, bu günlə bağlı isə sizə bir söz verməmişəm», - deyə cavab verər və qalanın bütün müdafiəçiləri qılıncdan keçirilərək şəhid edilər.

Deyilənə görə məhz bu hadisədən sonra Avropa xristianları aprel ayının birini zarafat və hiylə günü olaraq qeyd etməkdədirlər. Hadisənin nə dərəcədə tarixi bir gerçəklik olduğunu söyləmək və ya iddia etmək çətindir. Düzdür, Əndəlüsdə son qala 1492-ci ilin yanvar ayının 2-də zəbt edilir. Amma oradakı qalalardan başqa birinin məhz rəvayətdə qeyd edildiyi kimi tutulduğunu da təsdiq edə bilmədiyimiz kimi, təkzib də edə bilmərik.

***2-ci məqam***

Daha bir maraqlı hadisə Boston Universitetinin tarix professoru Joseph Boskinin irəli sürdüyü və sonradan qalmaqala səbəb olmuş nəzəriyyə ilə əlaqədardır. Qlobal informasiya məkanında böyük təsir gücünə malik, beş iri dünya informasiya agentliyindən biri olan «Associated Press»in sayəsində yüzlərlə media orqanına ötürülən və nəticədə yayılan bu «nəzəriyyə»nin sonradan zarafat olduğu məlum olur.

Boskinin orta əsrlərlə bağlı araşdırma aparması səbəbi ilə inandırıcı bir şəkildə anlata bildiyi bu hadisə hamı tərəfindən ciddi qəbul edilir. O, yazır ki, Kugel adlı bir fırıldaqçı hiylə yolu ilə hamını aldatmağı bacararaq, məhz aprelin 1-də kral taxtına əyləşir və «1 aprel» də məhz onun şərəfinə yüz illərdir ki, qeyd edilməkdədir. Lakin bu hadisədə diqqəti çəkən əsas məqam həm də ondan ibarət olur ki, kugel - əslində insan adı yox, məşhur yəhudi yeməyinin ismi olur.

Professorun bu fərziyyəsi çox keçmir ki, media ilə «1 aprel» zarafatı kimi anlaşılır və əslində hadisənin Boskinin xəyal məhsulu olması məlum olur.

***3-cü məqam***

Başqa tərəfdən də Kanzas Universitetinin hazırladığı «Calendar of Diversity»də (Fərqliliklər Təqvimi) 1 Aprel zarafatı haqqında ən çox qəbul edilən hadisənin təqdim edildiyini görürük.

1582-ci ildə Papa XIII Gregory zamanında, vaxtı ilə Roma İmperatoru olmuş Yuliy Sezar tərəfindən hazırlanan «yulian təqvimi», Papanın adı ilə adlandırılmış «Gregoryan təqvimi» ilə əvəz edilir. Bu səbəbdən də, əvvəllər 25 mart-l aprel tarixlərində qeyd edilən yeni ilin vaxtı, 1 yanvar gününə dəyişdirilir. Dəyişikliyi etirazla qarşılayanlar və hətta buna qarşı çıxanlar olur. Müxaliflər etiraz əlaməti olaraq yeni ilə köhnə təqvimin vaxtı ilə bayram etdiklərindən, digərləri tərəfindən məsxərə və gülüş obyektinə çevrilirlər və köhnə yeni il olan 1 aprel günü boyunca müxtəlif zarafatlara (saxta əyləncə dəvətnamələri, sümükdən hazırlanmış hədiyyələr və s.) məruz qalırlar.

Yuxarıda qeyd etdiyim məqamların üçü də öz-özlüyündə düşündürücü və ibrətamizdir. Hər halda nəyi və necə qeyd etdiyimizi bilməyimiz baxımından…

Mövzu ilə bağlı fikirlərimi isə məşhur amerikalı yazıçı və publisist Mark Tvenin, 1 aprelə eyni zamanda «Axmaqlar günü» deyilməsi ilə əlaqədar söylədiyi bü düşündürücü sözlərlə yekun vurmaq istərdim: «1 aprel - digər 364 gündə nə olduğumuzu xatırladığımız gündür»…

***Vüqar Ziffəroğlu,***
*Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru*

REKTORLARIMIZ...

### "Şərqin ilk dünyəvi ali təhsil ocağı" olan BDU-ya kimlər rəhbərlik edib?

# BDU-nun taleyi bu dəfə də azərbaycanlıya etibar edilmədi

***BDU-nun üçüncü rektoru haqqında bəhs etməzdən əvvəl çox mühüm bir faktı qeyd etmək istərdim ki, BDU-nun yaranma tarixi, fəaliyyəti ilə bağlı sovet dövründə, (bəzən 1990-1991-ci illərdə də) yəni, "elmimizin siyasətə xidmət etdiyi və yaxud ideologiya ilə "bir yastığa baş qoyduğu" zamanda yazılan bütün əsərlərdən belə bəlli olur ki, "Universiteti bolşeviklər və mütərəqqi əhvalruhiyyəli rus alimləri yaratmışlar, "müsavatçılar" isə bunun əleyhinə idilər". Məsələn, akademik Cəmil Quliyev "Bakı Dövlət Universitetinin tarixi" adlı kitaba yazdığı rəydən: "müsavatçıların müqavimətinə baxmayaraq, Azərbaycan bolşevikləri, hümmətçiləri buna nail oldular və onların xidmətini göstərmək lazımdır".*** Cəmil müəllim eyni fikirlərini "Universitetimizin tarixindən səhifələr" (Bax: Bakinski raboçi" qəzeti, 1969-cu il 9 fevral) adlı məqaləsində də davam etdirib. Müəllif yazırdı: "Zamanın toz-dumanı arxasında tarixi faktların və hadisələrin mahiyyətini görməyən bəzi adamlar bu qənaətə gələ bilərlər ki, Azərbaycan universitetinin məhz 1919-cu ildə əsasının qoyulması Müsavat hökumətinin təşəbbüsü ilə olmuşdur, onlar bu xronoloji təsadüfü Müsavat hökumətinin xalq təhsilinə və millətin mənafelərinə qayğının təzahürü kimi başa düşə bilərlər. Əslində isə Azərbaycan universiteti tərəqqipərvər qüvvələrin əksinqilabçı müsavatçılara və onların o vaxtlar Azərbaycanda fəaliyyət göstərən digər mürtəce partiyalardan və siyasi qruplardan olan müttəfiqlərinə qarşı mübarizədə meydana gəlmişdir". Təəssüf, çox təəssüf. Bu yanlışlıqlar, uydurmalar, haqsızlıqlar təkcə BDU-nun yox, böyük İstiqlalımızın tarixi ilə bağlıdır. Burada yadıma Həmidə xanım Cavanşirin (Məmmədquluzadə) "Xatirələrim"dəki bir cümlə düşdü. "...heç bir qorxu, heç bir ehtiyac, hətta analıq duyğusu da onu yalan yazmağa, şərə, İblisə xidmət göstərməyə məcbur edə bilmədi. Şərlə döyüşməyə gücü çatmasa da, heç olmasa susdu, ona dəstək vermədi. Bunu bacarmağın özü böyük bir igidlikdir!".



*Aleksandr Dmitriyeviç Qulyayev*

...Sovet hökuməti hər vəchlə "millətin maarif, mədəniyyət və elminin ulu təməli üzərində çatılmış ən gur Ocağını" Mərkəzin diqtəsi ilə idarə olunan bir quruma çevirməyə çalışırdı. Burada tərifi "göylərə qaldırılan güclü Sovet dövlətinin əzəmətliliyi ideyasını azad milli inkişafın ideyasına" qurban verərək "ucalanlar", ad-san alanlar da oldu, adsanını, canını qurban verənlər də...

***Mərkəz bu dəfə də BDU-nun taleyini azərbaycanlılara etibar etmədi. "1923-cü il oktyabrın 15-də fəlsəfə professoru, prorektor Aleksandr Dmitriyeviç Qulyayev universitetin rektoru seçildi".*** Xatırladaq ki, A.D.Qulyayev rektor seçildikdən sonra BDU-da ikinci prorektorun seçilməsinə qadağa qoyuldu. Belə ki, "1923-cü il mayın 23-də professor A.D.Qulyayev prorektor seçildi. Universitet Şurasının 30 may tarixli təqdimatına əsasən Xalq Maarif Komissarlığı ikinci prorektor vəzifəsini təsis etdi. 1923-cü il iyulun 14-də Universitet Şurası professor H.Şahtaxtinskini ikinci prorektor seçdi. 1923-cü il oktyabrın 15-də A.D.Qulyayevin 1923-1924-cü tədris ili üçün rektor seçilməsi ilə əlaqədar olaraq Xalq Maarif Komissarlığı bu seçkini təsdiq edərək sərəncam verdi ki, prorektor sələhiyyəti H.Şahtaxtinskiyə verilsin, ikinci prorektor isə seçilməsin".

Aleksandr 1870-ci ildə Nijni Novqorod şəhərində ruhani ailəsində anadan olub. Elə ilk təhsilini də "ruhani məktəbində alan Aleksandr sonra Kazan Ruhani Akademiyasında oxuyub. Dini elmlərlə yanaşı dünyavi elmlərə də maraq göstərən Aleksandr daha sonra Kazan Universitetinin tarix və filologiya fakültəsinə daxil olaraq tarix və fəlsəfə elmləri üzrə mükəmməl ali təhsil alıb. Lakin o, bununla da kifayətlənməyib. 1902-ci ildə Aleksandr Xarkov Universitetinin fəlsəfə üzrə magistr dərəcəsinə yiyələnib. Təhsilə olan marağı onun universitetdə qalmasına səbəb olur. A.D.Qulyayev 1908-ci ildə dosent, 1915-ci ildə isə professor adına layiq görülür və 1914-1915-ci illərdə Kazan Universitetinin tarix və filologiya fakültəsində dekan vəzifəsində çalışıb.

1920-ci ildə gənc və istedadlı filosof - məntiqşünas alim A.D.Qulyayev V.İ.Razumovski tərəfindən "P.K.Juze ilə birlikdə BDU-ya dəvət olunur". Onlar məmnuniyyətlə dəvəti qəbul edərək Bakıya gəlirlər və 1920-ci ilin sentyabrından universitetdə işləməyə başlayırlar. A.D.Qulyayev ilk olaraq BDU-da "pedaqogika fakültəsində pedaqogika tarixi və fəlsəfə tarixi kafedrasına rəhbərlik edərək dialektik materializmdən mühazirələr oxuyur". Dostu şərqşünas, professor P.K.Juze isə ilk olaraq tarix-filologiya fakültəsinin Şərq şöbəsində mühazirələr oxuyub. ("Tarix-filologiya fakültəsinin Şərq şöbəsi universitet yaranan gündən mövcud olub. 1922-ci il martın 30-da Universitet Şurası Şərq fakültəsinin yaradılmasını təsdiq edərək payız semestrinin açılışı gününü təyin etdi və fakültə yığıncağının dekanı seçməsinə icazə verdi. 1922-ci il aprelin 12-də görkəmli şərqşünas, professor P.K.Juze fakültənin dekanı seçildi").

***A.D.Qulyayev BDU-ya rəhbərlik etdiyi illər (1923-1926) universitetin həyatında mühüm hadisələr baş verdi, qərarlar qəbul edildi. Təbii ki, bu qərarlar hökumətin "qayda-qanun"larına uyğun idi. O, 1923-cü ilin oktyabrında rektor seçilərkən BDU-nun nizamnaməsinə əsasən "Şərq fakültəsi istisna olmaqla, digər fakültələrdə bütün məcburi kursların və məşğələlərin rus dilində aparılması haqqında qərar qəbul etdi".*** Elə həmin il universitetin Nizamnaməsinə "yeni bir maddə də daxil edildi. Bu maddəyə əsasən universitet şurasının, fakültələrin idarə heyətinin, klinik şuranın bütün protokollarının, təftiş komissiyası aktlarının bir nüsxəsi Xalq Maarif Komissarlığının Baş Maarif İdarəsinə təqdim edilməlidir". Bir il sonra "1924-cü ilin yanvarından Azərbaycan Dövlət Universiteti Vladimir İliç Lenin adına Azərbaycan Dövlət Universiteti adlandırıldı".

Hökumət bu yolla universiteti "dövlət siyasətini həyata keçirmək üçün mühüm orqana çevirmək" arzusunda idi. O zaman Xalq Maarif Komissarı olan Dadaş Bünyadzadə yazırdı ki: "Bu təhsil ocağı həyata getdikcə daha dərindən nüfuz edir, sosializim quruculuğu işinə getdikcə daha fəal qoşulur". İlk gündən Azərbaycan ərazisində hər sahədə ruslaşma siyasətini aparmağı qarşısına qoyan Şura hökumətinin A.D.Qulyayevdən daha çox umacağı var idi. A.D.Qulyayev elmtəhsil mərkəzini bütövlüklə "dövlət ideologiyasına xidmət etməsini istiqamətləndirməli" idi. A.D.Qulyayev bunu hökumətin istədiyi səviyyədə edə bilmədikdə "cəzalandırılır". O, özündən əvvəlki rektorlardan fərqli olaraq nə "xəstəliyinə və ailə şəraitinə görə" universitetin rektoru vəzifəsindən imtina etmək ərizəsini yazır, nə də Bakını tərk edir. Amma rektorluq vəzifəsindən uzaqlaşdırılır və yenidən 1928-ci ilin sonlarına kimi prorektor vəzifəsini icra edir. Görünür, A.D.Qulyayev "nisbətən" hökumət adamı olduğu üçün V.İ.Razumovski və S.N.Davidenkov kimi hökumət tərəfindən təzyiqlərə məruz qalmadığı üçün Bakını tərk etməyib. 1930-cu ildə "Əməkdar elm xadimi" adına layiq görülən alim ömrünün sonuna kimi BDU-da çalışıb. O, 1935-ci ildə (bəzi mənbələrdə 1930-cu il qeyd edilir) Bakıda dünyasını dəyişib.

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi kafedrası, dosent*

# BDU-da elektron dərslərin bu günü və perspektivləri



***BDU-nun Keyfiyyətin təminatı və monitorinq şöbəsi və Tədris-Metodik Şuranın təşəbbüsü ilə bu müəssisədə bütün fakültələr və bütün kurslar üzrə ana fənlərin elektron mühazirələrinin hazırlıq prosesinə başlanılmışdır.*** Bu mühazirələr Jurnalistika fakültəsinin nəzdində fəaliyyət göstərən Televiziya-Tədris studiyasında yüksək səviyyəli telekameralar, stasionar studiyada yazılmaqdadır. Mühazirələr təcrübəsi və peşəkarlığı ilə seçilən pedaqoqlara tapşırılmışdır. Universitetin rektoru Elçin Babayev Keyfiyyətin təminatı və monitorinq şöbəsi və Metod Şuranın bu təşəbbüsünü yüksək qiymətləndirmiş və elektron dərslərin hazırlanması, onlayn sisteminə yerləşdirilməsi üçün hər cür texniki və mənəvi kömək göstərilməsi barədə rəhbərliyə tapşırıqlarını vermişdir. Elektron dərslərin ilk çəkilişləri uğurla alınmış və artıq öz səmərəsini göstərməkdədir.

Təcrübədən məlum olur ki, bu təşəbbüs tədris müəssisələrinin müvəqqəti dayandırılması ilə bağlı olsa da, onu davam etdirmək və bütün il boyu tələbələrə təqdim etmək vacibdir. Təşəbbüsün perspektivləri çox böyükdür və gələcəkdə bütün fənlərin vizual mühazirə variantları hazırlanacaqdır.

*Günel Mehdizadə (Bayatlı),*
*Jurnalistika fakültəsinin məzunu*



# UNİVERSİTET XƏBƏRLƏRİ

## BDU-da dezinfeksiya işləri davam etdirilir

Bakı Dövlət Universitetində infeksiyalara yoluxma hallarına yol verilməməsi və onun qarşısının alınması, bu sahədə profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə dezinfeksiya işləri və qabaqlayıcı tədbirlər bu gün də davam etdirilib.



Bakı Şəhər Dezinfeksiya Stansiyasının bölmələri tərəfindən universitetin auditoriyaları, kitabxanası, dəhlizləri, akt zalları və digər ərazilərində dezinfeksiya işləri aparılır.

# Vikipediya qrupu yaradılıb



***Jurnalistika fakültəsində Vikipediya qrupu yaradılıb. Jurnalistika fakültəsinin tələbələri Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının "Vikipediya" Metodik Mərkəzinin təlimlərində iştirak ediblər.*** Təlimlərin əsas məqsədi tələbə-könüllülərin "Vikipediya"nın Azərbaycan və xarici dil bölmələrində səhifələrin yaradılmasında və redaktə olunmasında iştirakını təmin etməkdir. "Vikipediya" Metodik Mərkəzinin könüllüləri Azərbaycanın maddi-mədəni abidələri, tarixi, coğrafiyası, ədəbiyyatı, jurnalistikası kimi mövzular ətrafında məqalələrin yaradılması və bu sahədəki boşluqların aradan qaldırılmasında fəaliyyət göstərəcəklər.

Təlimlər 2018-ci ildə Mərkəzi Elmi Kitabxana, BDU-nun elmi kitabxanası və Jurnalistika fakültəsi arasında əməkdaşlıq haqqında memorandum çərçivəsində təşkil olunub. Memorandumda tərəflər arasında informasiya və sənəd mübadiləsinin aparılması, müəssisələrin elmi vəsait bazalarının zənginləşdirilməsi və gələcəkdə birgə layihələrin təşkili məsələləri nəzərdə tutulub.

2019-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin tələbələri Mərkəzi Elmi Kitabxananın "Vikipediya" Metodik Mərkəzinin təlimlərində iştirak edərək bugünə qədər 30-dan çox yeni məqalə yaradıblar.

# Videomontaj təlimlərinə start verilib



*Jurnalistika fakültəsinin Tədris teleradio studiyasında videomontaj təlimlərinə start verilib.* Televiziya jurnalistikası haqqında biliklərini iştirakçılarla bölüşən studiyanın rəhbəri Ramin Rzayev onlara təlimlərin keçirilmə məqsədləri barədə məlumat verib.

Təlimçi, studiyanın video-montajçısı Sərdar Əsədzadə tələbə-jurnalistləri montaj proqramları haqqında məlumatlandırıb, onlara paktik olaraq proqramlardan necə istifadə etməyin yollarını izah edib.

Sonda iştirakçılarla praktik iş aparılıb və müvafiq tapşırıqlar verilib.

Əlavə edək ki, montaj təlimi bir neçə dərs keçirildikdən sonra operatorluq, müxbir işi və aparıcılıq təlimlərinə start veriləcək. Təlimlərin keçirilməsində əsas məqsəd tələbə-jurnalistlərin praktik bilgilərini artırmaq və peşə vərdişlərini formalaşdırmaqdır.

# BDU professorunun məqaləsi yüksək impakt faktorlu jurnalda dərc olunub

Biofizika və molekulyar biologiya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllif olduğu "Xroniki Böyrək xəstəliyinin qlobal, regional və milli yükü, 1990-2017": Qlobal xəstəlik yükünün tədqiqinin 2017-ci il üçün sistemli analizi" adlı məqaləsi "The Lancet" - beynəlxalq tibb jurnalında dərc olunub. "The Lancet" tibb sahəsində dünyanın ən məşhur və nüfuzlu jurnalları sırasında ikinci yerdədir. Məqalədə xroniki böyrək xəstəliyinin stres amili kimi qlobal sağlamlığa, ölüm hallarına və ürək-damar xəstəliyinə təsiri araşdırılıb.

# Çin vurusu: Koronavirus nədir və nə dərəcədə narahat olmalı?

*Koronaviruslar sətəlcəmdən tutmuş Orta Şərq Respirator Sindromu (MERS) və Şiddətli Kəskin Respirator Sindromuna (SARS) qədər müxtəlif xəstəliklərə səbəb olan böyük bir virus qrupudur. Xəstəliyin klinik əlamətləri əsasən hərarətdir. Bəzi pasiyentlərin döş qəfəsi rentgenoqrafiyalarının nəticəsində hər iki ağciyərdə infiltrasiya və tənəffüs çatışmazlığı müşahidə olunur. İlkin tədqiqatlar göstərir ki, xəstəlik insandan insana keçməyib. Sətəlcəmin səbəbi yeni koronavirus kimi görünsə də, ötürülmə potensialı və şəkli hələ də bilinmir.*

***Koronavirusun simptomları nədir?***

Qızdırma ilə başlayan xəstəlik daha sonra quru öskürəklə müşayiət olunur. Bundan bir həftə sonra təngnəfəslik əmələ gəlir və bəzi hallarda xəstələrin xəstəxanaya aparılmasına ehtiyac yarana bilər.

Bu simptomların sizdə olması sizin koronavirusa tutulduğunuz anlamına gəlmir. Çünki, soyuqdəymə və qripin də simptomları belədir.

Xəstəliyin kəskin halları sətəlcəmə, ağır kəskin tənəffüs sindromu, çoxsaylı orqan çatışmazlığı və hətta ölümə də səbəb ola bilər.

Yaşlı insanlar və ya əvvəllər astma, diabet, ürək xəstəlikləri olmuş insanlar xəstəliyi daha ağır keçirə bilər.

İnfeksiyanı tutmaq və simptomların özünü göstərməsi arasındakı zaman - inkubasiya dövrü 14 gün çəkə bilər, Dünya Səhiyyə Təşkilatı (WHO, ÜST) deyir.

***Müalicəsi varmı?***

Korona virusu üçün xüsusi bir müalicə yoxdur. Çox vaxt simptomlar öz-özünə yox olur. Həkim resepti ilə alınan ağrı kəsicilər və ya antipiretik dərmanlar simptomları rahatlaşdıra bilər. ABŞ rəsmi sağlamlıq mərkəzi CDC bildirib ki, isti duş boğaz ağrısı və ya öskürək üçün yaxşı təsir edə bilər.

***Nə etməli?***

Bol maye içmək, mümkün qədər dincəlmək və yatmaq. Əgər simptomlar standart bir soyuqdəymədən daha pis görünürsə, həkiminizlə məsləhətləşin.

*Bu virusdan qorunmaq üçün heç bir peyvənd yoxdur. Xəstələnən insanlardan uzaq durmaqla yoluxmanın qarşısını almaq olar*

***Nə qədər sürətli yayılır?***

Dünyaboyu hər gün xəstələnənlərin sayı artır. Lakin mütəxəssislər hesab edir ki, xəstələrin sayı rəsmi rəqəmlərdən xeyli artıqdır.

Xəstəliyin episentri Çinin Uhan şəhərində yerləşır. Lakin artıq dünyanın 136 ölkə və ərazisində bu xəstəliyin olması təsdiqlənib.

Xəstəliyin yayıldığı ilk günlərdə yoluxanların demək olar ki, hamısı Uhana səfər edənlər idi. İstisnanı Tailandda baş verən bir yoluxma halı təşkil edir. Burada yoluxmanın mənbəyi heyvan olub.

ÜST-ün 56 min pasiyent arasında apardığı sorğu nəticəsində aydın olub ki, yoluxanların hər beş nəfərindən dördündə simptomlar mülayim olur.

Daha dəqiq, yoluxanların 80 faizində simptomlar yüngül, 14 faizində kəskin, 6 faizində isə kritik olub. Xəstəlikdən ölənlər 1-2 faiz təşkil edib, lakin bu məlumatlar dəqiq deyil.

***Necə qorunmalı?***

Bu virusdan qorunmaq üçün heç bir peyvənd yoxdur. Xəstələnən insanlardan uzaq durmaqla yoluxmanın qarşısını almaq olar. Göz, burun və ağzınıza toxunmaqdan çəkinin. Əllərinizi tez-tez sabunla ən azı 20 saniyə yuyun.Xəstə olsanız insan kütləsi çox olan yerlərə getməyib, yaxın təmasdan qaçın. Öskürərkən və ya asqırarkən ağzınızı, burnunuzu örtün və toxunduğunuz əşyaları, səthləri dezinfeksiya edin.

*Aynur Qurbanqızı,*
*Nəşriyyat, komputer tərtibatçısı*


**Buraxılışa məsul redaktor:** Afaq Sadıqova

**Redaksiya heyəti** Əliş Ağamirzəyev, Vüqar Ziferoğlu, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

**Çapa imzalandı:** 28.03.2020

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır